EUROPEAN ACCREDITATION

AzAK



# AKKREDİTASİYA: TƏNZİMLƏNMƏNİN DƏSTƏKLƏNMƏSİ, TICARƏTİN ARTIRILMASI

AzAK









AZAK, AZƏRBAYCAN AKKREDİTASİYA MƏRKƏZİ 5

AKKREDİTASİYA 7

UYĞUNLUĞUN QİYMƏTLƏNDİRİLMƏSİ 11

SƏRİŞTƏNİN TƏMİN EDİLMƏSİ 15

DÖVLƏT VƏ ÖZƏL SAHƏ ÜÇÜN FAYDALARI 19

AKKREDİTASİYANIN ƏLAVƏ DƏYƏRİ 23

AKKREDİTASİYA ORQANLARININ ŞƏBƏKƏSİ 27



# AZAK, AZƏRBAYCAN AKKREDİTASİYA MƏRKƏZİ

## Hökumətin və biznes fəaliyyətinin dəstəklənməsi üçün onun qəbul edilmiş rolu

**AZAK sınaq və kalibrləmə laboratoriyaları, sertifikatlaşdırma və inspeksiya orqanları kimi uyğunluğun qiymətləndirilməsi qurumlarının akkreditasiyasını həyata keçirmək üçün Dövlət tərəfindən səlahiyyətləndirilmiş Azərbaycan Respublikasının vahid milli akkreditasiya orqanıdır.**

AZAK müstəqil və özünü maliyyələşdirən bir təşkilat kimi fəaliyyət göstərərək, sınaq, kalibrləmə, sertifikatlaşdırma və inspeksiya xidmətlərini təklif edən akkreditasiya olunmuş orqanların məhsul və xidmətlərinin müvafiq milli və beynəlxalq standartlara uyğunluğunu yoxlamaq (qiymətləndirmək) üçün texniki səriştəyə və qərəzsizlik qaydalarına malik olduğunu təsdiq etmək üçün institusional öhdəliyə malikdir.

Akkreditasiya fəaliyyəti iki departament tərəfindən həyata keçirilir: Laboratoriyaların akkreditasiyası departamenti və Sertifikatlaşdırma və inspeskiya orqanlarının akkreditasiyası departamenti.

2017-ci ildə 285 uyğunluq qiymətləndirmə orqanı akkreditasiya edilmiş, bunlardan 200 sınaq laboratoriyası, 38 kalibrləmə laboratoriyası, 16 inspekisya orqanı və 31 sertifikatlaşdırma qurumu olmuşdur. 31 sertifikatlaşdırma orqanından da 11-i heyətin (personalın) sertifikatlaşdırılmasına, 10-u məhsul və xidmətlərə, və 10-u isə keyfiyyəti idarəetmə sisteminə aiddir.

AZAK könüllü, eləcə də tənzimlənən sahədə uyğunluğu qiymətləndirmə orqanlarının akkreditasiyasını həyata keçirir.

Azərbaycan Akkreditasiya Mərkəzi Avropa Akkreditasiya Təşkilatının (EA) və Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Təşkilatının (ILAC) assosiativ üzvüdür.

# Akkreditasiya nədir?



# AKKREDİTASİYA
## Cəmiyyət üçün bir xidmətdir

**Akkreditasiya məhsulların və xidmətlərin müvafiq milli və beynəlxalq standartlara uyğunluğunu yoxlamaq (qiymətləndirmək) üçün sınaq, kalibrləmə, sertifikatlaşdırma və inspeksiya xidmətləri göstərən akkreditasiya olunmuş orqanların texniki səriştəyə və qərəzsizlik prinsiplərinə malik olduğuna dair attestasiyanı təmin edir.**

2014-cü il 30 may tarixində qəbul edilmiş "Uyğunluğun qiymətləndirməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanuna məhsulların bazarlara təchiz olunması ilə bağlı akkreditasiya üçün tələbləri müəyyən edən 765/2008 saylı Avropa Normativ-Hüquqi Aktına (AK) uyğunlaşdırılmaq məqsədilə hazırda dəyişikliklər edilməsi ilə bağlı təkliflər hazırlanır.

Avropada akkreditasiya (EC) 765/2008 saylı Normativ-Hüquqi Aktın tələblərinə uyğun olaraq hökumətlərin təyin etdiyi milli akkreditasiya orqanları (MAO) tərəfindən həyata keçirilir.

- Qanun tənzimlənən sahədə tətbiq olunan standartlar üzrə yalnız uyğunluğun qiymətləndirilməsindən sonra bazarda yerləşdirilə biləcək müəyyən kateqoriyalı məhsul və xidmətləri (məsələn, oyuncaqlar, liftlər, qorunan və ya zəmanətli mənşəyi olan ərzaq məhsulları və s. kimi CE işarəsi ilə işarələnmiş məhsullar) qiymətləndirən orqanların akkreditasiyasını tələb edir. Bu səlahiyyətləndirmədir (notifikasiya).

- Xüsusi qanunvericiliklə tənzimlənməyən könüllü fəaliyyət sahəsində şirkətlər məhsul və xidmətlərin keyfiyyətinə, təhlükəsizliyinə və s. zəmanət verilməsi sahəsində bazarı öz qərəzsiz attestasiyası ilə təsdiqlənmiş səriştəliliklərini təmin etmək üçün akkreditasiya olunmağa çalışırlar.

**AZƏRBAYCANDA, AKKREDİTASİYA 2014-CÜ İL 30 MAY TARİXLİ QANUNLA TƏNZİMLƏNİR**

**QANUN HAZIRDA (AK) 765/2008 SAYLI AVROPA NORMATİV-HÜQUQİ AKTINA UYĞUNLAŞDIRILMAQ ÜÇÜN HAZIRDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ İLƏ BAĞLI TƏKLİFLƏR HAZIRLANIR**

**AKKREDİTASİYA HƏM TƏNZİMLƏNƏN, HƏM DƏ KÖNÜLLÜ FƏALİYYƏT SAHƏLƏRİNİ DƏSTƏKLƏYİR**

**AKKREDİTASİYA TİCARƏTİ ASANLAŞDIRIR VƏ BAZAR VƏ CƏMİYYƏTƏ FAYDALAR VERİR**

# Avropa Ittifaqı tələblərinə uyğun bir milli akkreditasiya sistemi

Azərbaycan Respublikasında akkreditasiya 30 May 2014-cü il tarixli "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Qanunla tənzimlənir və bu qanun Azərbaycan Respublikası daxilində sınaq, kalibrləmə, sertifikatlaşdırma, inspeksiya üzrə uyğunluğun qiymətləndirilməsi fəaliyyətini həyata keçirən orqanların akkreditasiyasının hüquqi və təşkilati əsaslarını müəyyən edir.

Milli Qanuna məhsulların bazarlara təchiz olunması ilə bağlı akkreditasiya üçün tələbləri müəyyən edən 765/2008 saylı Avropa Normativ-Hüquqi Aktına (AK) uyğunlaşdırılmaq məqsədilə hazırda dəyişikliklər edilməsi ilə bağlı təkliflər hazırlanır.

2008-ci ildən etibarən (AK) 765/2008 saylı Normativ-Hüquqi Akt Avropada akkreditasiya üçün ilk hüquqi çərçivəni müəyyən edir.

Bu, akkreditasiya üçün uyğunlaşdırılmış, ciddi yanaşmanı təmin edir - belə ki, nəticədə bir akkreditasiya attestatı və ya hesabatı akkreditasiya olunmuş orqanın texniki səriştəsini nümayiş etdirmək üçün kifayət edəcəkdir.

ISO / IEC 17011 standartını və uyğunluğu qiymətləndirmə orqanları üçün digər beynəlxalq standartların tələblərini tamamlayan qanunvericilikdə akkreditasiyanın əsas prinsipləri aşağıdakılardır:

- hər bir üzv dövlət üzrə bir akkreditasiya orqanı
- akkreditasiya dövlət orqanı kimi fəaliyyət göstərir (dövlətin adından)
- milli akkreditasiya orqanları arasında və onlarla uyğunluğu qiymətləndirmə orqanları arasında heç bir rəqabət yoxdur
- gəlir əldə etmək məqsədi daşımayan fəaliyyətdir
- maraqlı tərəflərin təmsilçiliyi

## Uyğunluğun qiymətləndirilməsi nədir?



# UYĞUNLUĞUN QİYMƏTLƏNDİRİLMƏSİ
## Bazarda inamın artırılması

**Akkreditasiya olunmuş qurumlar (UQO) tərəfindən göstərilən sınaq, kalibrləmə, inspeksiya və sertifikatlaşdırma xidmətləri birlikdə uyğunluğun qiymətləndirilməsi fəaliyyətləri kimi tanınırlar.**

Səlahiyyətli və qərəzsiz qurumlar kimi fəaliyyət göstərən milli akkreditasiya orqanları (MAO) laboratoriyaların, inspeksiya və sertifikatlaşdırma orqanlarının səriştəliliyini qiymətləndirirlər.

MAO-lar uyğunluğun qiymətləndirilməsinin düzgünlüyünə və sertifikatların və hesabatların etibarlılığına zəmanət verir.

Akkreditasiya çərçivəsində təqdim edilən uyğunluğun qiymətləndirilməsi xidmətləri məhsul və xidmətlərin müəyyən edilmiş tələblərə - standartlara və digər müvafiq xüsusiyyətlərə uyğun olduğunu təsdiqləyir.

Uyğunluğun qiymətləndirilməsi sistemi ictimaiyyətdə əminlik yaratmaq və biznes sahəsində rəqabət qabiliyyətini artırmaq məqsədilə strukturlaşdırılmışdır.

Uyğunluğun qiymətləndirilməsi sistemi tənzimləyicilərin, biznes fəaliyyətlərinin və istehlakçıların etimadının artırılması və istehlakçılar və ətraf mühit üçün yüksək səviyyədə sağlamlığın qorunmasını və təhlükəsizliyi təmin edərək mal və xidmətlər bazarında azad hərəkətə təminat vermək məqsədilə beynəlxalq səviyyədə daim təkmilləşdirilmişdir.

Cəmiyyətin bütün qrupları bazara təklif olunan məhsul və xidmətlərə etimadın təmin edilməsində iştirak edirlər: hökumətlər, biznes, müştərilər və son istifadəçilər.

**Daha yaxşı tənzimləmə hökumətlərin, biznes fəaliyyətlərinin və istehlakçıların etimadının təmin edilməsində rol oynadığı səriştəli, qərəzsiz və effektiv bir sistemə əsaslanır.**

## TƏNZİMLƏYİCİLƏR

***aşağıdakı qurumların səriştəliliyini yoxlayan***

## MİLLİ AKKREDİTASİYA ORQANLARINA

***etimad edirlər***

| | | | | |
|---|---|---|---|---|
| **Sınaq laboratoriyaları** | **Səriştəlilik Sınaqların təşkilatçıları (provayderləri)** | **İnspeksiya Orqanları** | **Sertifikatlaşdırma Orqanları** Məhsulların, İdarəetmə Sistemlərinin, Şəxslərin | **Kalibrləmə Laboratoriyaları** |

***Bu orqanlar stndartlara/ tənzimləyici tələblərə/ sxem meyarlarına əsasən uyğunluğu qiymətləndirmə xidmətləri təklif edirlər***

| | | | | |
|---|---|---|---|---|
| **Sınaqetmə** | **Laboratoriyalararası müqayisələr və Səriştəlilik Sınaqlarının Proqramları** | **Məhsulların, Proseslərin, Xidmətlərin və Qurğunun (Quraşdırmanın) və ya onların layihəsinin inspekisyası** | **Məhsulların, Sistemlərin, heyətin (personalın), Proseslərin və Xidmətlərin Sertifikatlaşdırılması** | **Kalibrləmə** |

***aşağıdakıların mənfəəti üçün***

| | | |
|---|---|---|
| **Hökumətlər** | **Müəssisələr** | **İstehlakçılar** |

***Bazarda***

| | |
|---|---|
| **Məhsullar** | **Xidmətlər** |

**Akkreditasiya, akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən orqanların aşağıdakı xidmətləri həyata keçirmək üçün səriştəliliyinə zəmanət verən davamlı prosesdir**

**İDARƏETMƏ SİSTEMLƏRİNİN SERTİFİKATLAŞDIRILMASI**
keyfiyyət, ətraf mühit, peşə sağlamlığı və təhlükəsizliyi, enerji, ərzaq, informasiya təhlükəsizliyi, informasiya texnologiyaları, davamlı inkişaf üçün

**LABORATORİYA SINAQLARI**
neft, kimya, bioloji, fiziki, yanğın, mexaniki, su, hava, ərzaq, elektrik və elektron, proqram təminatı, heyvan sağlamlığı

**MƏHSULLAR, PROSESLƏR VƏ XİDMƏTLƏRİN SERTİFİKATLAŞDIRILMASI**
oyuncaqlar, liftlər, elektrik cihazları, şəxsi mühafizə avadanlıqları, tikinti materialları, bioyanacaqlar, üzvi ərzaq və keyfiyyət nişanları, təkrar emal məhsulları, e-imza

**TİBBİ YOXLAMALAR**
mikrobiologiya, histologiya, onkologiya, hematologiya, genetika, immunobiologiya, bakteriologiya, virologiya, endokrinologiya, reproduktiv biologiya

**ŞƏXSLƏRİN SERTİFİKATLAŞDIRILMASI**
auditorlar, qaynaqçılar, yoxlayıcılar, inspektorlar, ekspertlər, məsləhətçilər, IT, səhiyyə, təlim və təhsil mütəxəssisləri

**KALİBRASİYALAR**
sürətölçənlər, çəki ölçmə maşınları, spektrometrlər, xronometrlər, radiasiyaya nəzarət cihazları, qaz axını ölçmələri, elektrik sayğacları

**İNSPEKSİYALAR**
məhsullar, xidmətlər, proseslər, layihələr, qurğular, binalar, yollar, dəmir yolları, yük maşınları və avtomobillər

**YOXLAMALAR**
Su buxarı, karbon dioksid, metan, azot oksid, ozon, xloroflorokarbonlar kimi istixana qazı emissiyalarının EMAS qeydiyyatları və bəyanatları

# Səriştə necə təmin edilir?



# SƏRİŞTƏNİN TƏMİN EDİLMƏSİ

## Hesabatlara və sertifikatların nəticələrinə etibarın təmin edilməsi

**Akkreditasiya, səriştə, müstəqillik və qərəzsizlik üçün müəyyən edilmiş tələblərə uyğunluğun nümayiş etdirilməsinə əsaslanır.**

### SƏRİŞTƏ

Akkreditasiya olunmuş və ya ərizə ilə müraciət edən orqanda işçilərin təcrübəsi və texniki bacarıqları ixtisaslı qiymətləndiricilər tərəfindən müvafiq ekspertiza və ixtisaslaşmış biliklər ilə yoxlanılır.

### MÜSTƏQİLLİK

Sertifikatlaşdırmanı həyata keçirən akkreditasiya olunmuş orqanlar xidmətlər göstərdikləri təşkilatdan asılı olmadıqlarını nümayiş etdirməlidirlər.

### QƏRƏZSİZLİK

Akkreditasiya olunmuş orqanlar, xidmət göstərdikləri müştəri ilə maraq toqquşmalarının düzgün idarə edildiyini və ya olmadığını nümayiş etdirməlidirlər.

## Akkreditasiya

Akkreditasiya, uyğunluğu qiymətləndirmə orqanının onun akkreditasiya sahəsində təsvir olunmuş standartlara (ISO, IEC, və s.) və ya texniki reqlamentlərə uyğun olaraq xüsusi xidmətləri həyata keçirməsi məqsədilə texniki və təşkilati səriştəsinin rəsmi tanınmasıdır.



**Hesabatların (sınağın və inspeksiyanın) və sertifikatların (kalibrləmə və uyğunluq və s.) etibarlılığı beynəlxalq tələblərə uyğun olaraq səriştəliliyin ciddi və effektiv qiymətləndirilməsi prosesinin nəticəsidir.**

## İLKİN QİYMƏTLƏNDİRMƏ

Milli akkreditasiya orqanlarının qiymətləndiriciləri ərizəçinin təcrübələrini, işçi heyətini və idarəetmə sistemini ətraflı qiymətləndirir, beləliklə standartlara uyğunluğunu yoxlayır. Qiymətləndirməni müvəffəqiyyətlə keçmiş müraciət edən orqanlar akkreditasiya olunurlar. Onlar qəbul edilmiş sahələr üçün akkreditasiya nişanından istifadə edə bilərlər.

## AKKREDİTASİYA DÖVRÜ 2 - 5 İL MÜDDƏTİNİ ƏHATƏ EDİR

Milli akkreditasiya orqanları akkreditasiya olunmuş orqanların texniki ekspertizaya malik olan yüksək standartlara cavab verməsinə əmin olmaq üçün müntəzəm olaraq nəzarət qiymətləndirmələrini həyata keçirirlər. Akkreditasiya olunmuş orqanlar bütün öhdəlikləri və tələbləri yerinə yetirmədikdə, sanksiyalar tətbiq oluna bilər və sonra akkreditasiya sahələri azaldıla, dayandırıla və ya hətta ləğv oluna bilər.

## TƏTBİQ SAHƏLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİ

Akkreditasiya dövrü ərzində və ya akkreditasiyanın yenilənməsi zamanı akkreditasiya olunmuş orqanların müştərilərinin yeni ehtiyaclarına cavab olaraq akkreditasiya sahələri genişləndirilə bilər. Məsələn, yeni qanunvericiliyə uyğun sınaqlar keçirə bilmək üçün xüsusi qiymətləndirmələr aparılır.

## AKKREDİTASİYANIN YENİLƏNMƏSİ

Dövrün sonunda, yeni bir dövr üçün tam qiymətləndirmədən sonra akkreditasiya yenilənə bilər.



## Dövlət və özəl sektorlar üçün hansı faydalar var?

# DÖVLƏT VƏ ÖZƏL SEKTORLAR ÜÇÜN FAYDALAR

## Tənzimləyicilər və hökumətlər üçün üstünlüklər, istehlakçılara və biznesə faydalar gətirir

Bazarda inkişaf edən akkreditasiya keyfiyyət və təhlükəsizliyə olan tələbatın artdığı mal və xidmətlərin hərəkətini asanlaşdırmaq üçün uyğunlaşdırılmış, şəffaf və təkrarlanabilən bir yanaşma təklif edir:

- yeniliklərə imkan yaradır
- hökumətlərin öz resurslarından istifadə etmək ehtiyacını azaldır
- istehlakçıların və biznes fəaliyyətlərinin inamını təmin edir
- qanuni tələbləri münasib xərclərlə yerinə yetirməyə kömək edir

## Tənzimləyicilər və hökumətlər üçün

Daha yaxşı nəzarət və tənzimləmə üçün sınaq, inspeksiya, kalibrləmə və sertifikatlaşdırma istifadə edilə bilər.

Akkreditasiya edilmiş orqanlar tərəfindən təmin olunmuş xidmətlər istər tənzimləyicilərin və hökumətlərin birbaşa istifadə etdiyi kimi və ya qaydalara və tənzimləyici qaydalara istinad vasitəsi kimi, aşağıdakı məsələlərdə effektivliyi təmin edir:

- standartlara və geniş qəbul edilmiş tələblərə riayət olunmasını "təsdiqetmə möhürü" ilə milli qanunvericiliyin həyata keçirilməsini dəstəkləmək
- mal və xidmətlərin təchizatçılarının seçilməsi, xüsusilə də satınalma bazarında
- hökumətlərə etibarlı məlumatlar verməklə ticarət və iqtisadi artımın yaxşılaşdırılması
- bir sıra inzibati öhdəlikləri aradan qaldırmaqla bürokratiyanın azaldılması
- tənzimləyici orqanların ixtisaslaşdırılmış qiymətləndiricilərin istifadəsinə olan ehtiyacı azaltmaqla və auditlərin təkrarlanmasına yol verilməməklə xərclərin və resursların məhdudlaşdırılması
- qərar qəbul etmə vasitəsi kimi inamı təmin etməklə satınalma prosesinin sadələşdirilməsi

Müsbət faydalar gətirmək məqsədilə dünyada akkreditasiya edilmiş uyğunluğun qiymətləndirməsinin mərkəzi hökumət, yerli hökumət və tənzimləyicilər tərəfindən necə istifadə olunduğunu göstərən halları öyrənmək və müstəqil tədqiqatlarla tanış olmaq məqsədilə **www.publicsectorassurance.org** səhifəsinə daxil olun.

## İstehlakçılar üçün

*İnam yaratmaq*

Getdikcə istehlakçılar təchizatçıların reklamlarına sadəcə inanmaqdansa daha çox müstəqil dəlillərə etibar edirlər. İstehlakçılar seçdikləri məhsul və xidmətlərin müntəzəm olaraq müstəqil və səriştəli  üçüncü tərəfdən yoxlanıldığını bildikləri zaman onların bazara inamları artır.

*İctimai mənafeyi mühafizə etmək*

Təchizat zəncirinin digər sonluğunda istehlakçıların maraqları "yoxlayanların yoxlayanları" kimi fəaliyyət göstərən milli akkreditasiya orqanları tərəfindən qorunur.

## Biznes fəaliyyətləri üçün

*Səmərəliliyin artırılması*

Ən yaxşı təcrübəyə uyğun olaraq həyata keçirilən dəqiq kalibrləmə, ölçmə və sınaq, səhvlərin və məhsulun çatışmazlığını məhdudlaşdırmağa, istehsal xərclərinin nəzarətini yaxşılaşdırmağa kömək edir və innovativ mühitə töhvə verir. Şirkətlər akkreditasiya edilmiş bir orqan tərəfindən öz idarəetmə sisteminin, məhsul və xidmətlərinin sertifikatlaşdırılmasını əldə etdikdə, onlar qərarların qəbul edilməsi, risklərin idarə edilməsi və təchizatçı seçimi üçün tanınmış bir vasitədən istifadə edərək, öz məhsuldarlıqlarını artırırlar. Beləliklə, həm B2B (business to business), həm də istehlak bazarlarında nüfuz və etibarlılıq baxımından rəqabət üstünlüyündən faydalanırlar.

*Nəzarətlərin azaldılması*

Akkreditasiya edilmiş orqanlar tərəfindən sertifikatlaşdırma rəsmi standartlara və qaydalara uyğunluğu nəzərdə tutur. Bu, biznes fəaliyyətlərinin əlavə sübutlar təqdim etməsinə ehtiyac olmadığını və nəzarətlərin azaldılmasından və ya aradan qaldırılmasından sonra onların fəaliyyətlərinin sadələşdirilməsini nəzərdə tutur.

*İxracın dəstəklənməsi*

Akkreditasiya ilə əhatə olunan beynəlxalq səviyyədə tanınan uyğunluğun qiymətləndirilməsi hesabatları əlavə yoxlamalar aparmağa ehtiyac olmadan biznesin xarici bazarlarda genişləndirilməsinə stimul yaradır.

Ayrı-ayrı halların öyrənilməsi və müstəqil tədqiqatlarla tanış olmaq üçün **www.business-benefits.org** saytına daxil olun və burada, akkreditasiya edilmiş uyğunluğun qiymətləndirilməsinin biznes şirkətləri tərəfindən dünyada müsbət faydalar əldə etmək üçün necə istifadə olunduğu barədə məlumatla tanış olun.

# AKKREDİTASİYANIN ƏLAVƏ DƏYƏRİ

## Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirmə fəaliyyəti

**Akkreditasiya edilmiş orqanlar tərəfindən aparılan sınaqlar, inspeksiyalar, kalibrləmələr və sertifikatlaşdırmalar üçüncü tərəfin fəaliyyətinin müstəqil və səriştəli qiymətləndirməsinin nəticəsidir, bunlar da tənzimləmə, dövlət satınalmaları və ya məhsul və xidmətlərin bazara təchiz olunması sahəsində düzgün qərarların dəstəklənməsi üçün obyektiv nəticələrə səbəb olur.**

Belə xidmətləri həyata keçirən akkreditasiya edilmiş orqanlar, onların aşağıdakı prinsiplər baxımından tələb olunan bütün standartlara, o cümlədən tənzimləyici tələblərə və sektor meyarlarına cavab vermələrini təmin edirlər:

- texniki səriştə, peşəkarlıq və düzgünlük
- risklərin idarə edilməsi
- kifayət qədər insan və avadanlıq ehtiyatları
- məhsulun və xidmətin keyfiyyətinin yaxşılaşdırılmasının ölçülməsi mexanizmi
- şikayət və appelyasiya müraciəti sistemi
- beynəlxalq miqyasda rəqabət aparmaq qabiliyyəti

Akkreditasiyaya istinad edərkən xidmətlər və ya onları təmin edən orqanlar üçün tələb olunan zəmanətlərin növünə görə müvafiq tələbləri tanımaq və ya müəyyən etmək vacibdir.

**Akkreditasiya edilmiş orqanı seçərkən, onun hansı fəaliyyət sahələri üzrə akkreditasiya edildiyini müəyyən etmək əsasdır; bu barədə akkreditasiya attestatında ətraflı məlumat verilir.**

## SINAQ VƏ KALİBRLƏMƏ

Akkreditasiya edilmiş orqanlar tərəfindən aparılan sınaqlar və kalibrləmələr müəyyən edilmiş bir sıra sınaqlar üçün dəqiq və etibarlı nəticələrə təminat verir və kalibrləmələrin etibarlı, səriştəli, ardıcıl və qərəzsiz şəkildə və dəqiq düzgünlük səviyyəsində həyata keçirilməsini təmin edir.

**Sınaq laboratoriyasının akkreditasiyası aşağıdakıları ifadə edir:**

- sınaq metodlarının etibarlılığı və uyğunluğu
- sınaq avadanlığının uyğunluğu və saxlanılması (texniki xidməti)
- sınaq məmulatlarının müvafiq şəkildə nümunəsinin seçilməsi, işlənməsi və daşınması
- keyfiyyətə nəzarət və sınaq məlumatlarının təmin edilməsi

**Kalibrləmə laboratoriyasının akkreditasiyası aşağıdakıları nəzərdə tutur:**

- kalibrləmə nəticələrinin metroloji izlənməsi
- əməliyyatların və qeydlərin izlənməsi
- ölçmələr validasiya olunmuş prosedurlara əsasən həyata keçirilir
- standartların və ölçmə vasitələrinin etibarlılığı

ISO / IEC 17025 standartı əsasında akkreditasiya həm də laboratoriyanın İSO 9001 standartının idarəetmə sistemi prinsiplərinə cavab verdiyini bildirir.

## SƏRIŞTƏLILIK SINAQLARIN TƏŞKILATÇILARI (PROVAYDERLƏRI)

Akkreditasiya edilmiş Səriştəlilik Sınaqların təşkilatçıları (provayderləri) laboratoriyaların səriştələrini müqayisə etmək üçün və laboratoriyaların məlumatlarının istinad göstəricilərinə müqayisədə (və ya digər iş məhsuldarlığı meyarları) və ya oxşar laboratoriyaların iş məhsuldarlığına görə müstəqil qiymətləndirilməsini aparmaq üçün etibarlı imkanlar yaradır.

## İNSPEKSIYA

Akkreditasiya müfəttişlərin səriştəli olduğuna, inspeksiyaların həyata keçirilməsi üçün istifadə olunan metodların uyğunluğuna və qərəzsiz nəticələrə təminat verir.

İnspeksiya, könüllü və tənzimlənən sahələrdə məhsul, layihə, xidmət, proses və ya quraşdırmanın peşəkar rəy əsasında tələblərə uyğunluğunu qiymətləndirmək üçün istifadə edilə bilər.

## PERSONALIN SERTIFIKATLAŞDIRILMASI ÜZRƏ ORQAN

Personalın sertifikatlaşdırılması orqanlarının akkreditasiyası könüllü və ya məcburidir; bu, müəyyən peşə kateqoriyaları (yəni qeyri-dağıdıcı sınaqetmə, qaynaq, əmlak, diaqnostika tədqiqatları və s.) üçün nizamnamə (qanuni) tələbi ola bilər.

**Akkreditasiya edilmiş orqan tərəfindən personala verilmiş şəhadətnamə, personalın uyğun olduğu normativ sənədə düzgün istinad edilməklə, orqanın sertifikatlaşdırmaq üçün səriştəli kimi qiymətləndirdiyi şəxsin ixtisasına istinad edir.**

## İDARƏETMƏ SİSTEMİNİN SERTİFİKATLAŞDIRILMASI

İdarəetmə sisteminin (İS) sertifikatlaşdırması bir məhsulun və ya xidmətin istehsal proseslərinin nəzarət altında olduğuna və sistemli bir şəkildə həyata keçirilməsinə və iş məhsuldarlığının davamlı olaraq təkmilləşdirildiyinə və müştərilərin tələblərinə cavab verməsinə zəmanət verir.

Akkreditasiya edilmiş orqan tərəfindən İS sertifikatlaşdırmaları qiymətləndirmədə qərəzsizliyi təmin edir; auditorlar sertifikatlaşdırılacaq fəaliyyət barədə məlumatlıdırlar və müvafiq təcrübəyə malikdirlər.

**Bir təşkilat yalnız sertifikatlaşdırmanın tətbiq sahəsindən və səriştəli orqan tərəfindən yoxlanılmış və təsdiq edilmiş ətraflı proseslərdən ibarət olan, müəyyən edilmiş tətbiq sahəsini əhatə edən sertifikatda göstərilən idarəetmə sistemi standartına uyğun olaraq sertifikatlaşdırılır. Təşkilatın sertifikatlaşdırma ilə əhatə olunmuş iş sahələri də idarəetmə sisteminin sertifikatında göstərilmişdir.**

## MƏHSULLARIN, PROSESLƏRİN VƏ YA XİDMƏTLƏRİN SERTİFİKATLAŞDIRILMASI

Bir məhsul (məs. aşağı enerji lampası), bir xidmət (məs. sərnişin daşınması) və ya bir proses (məs. üzvi təsərrüfat fəaliyyəti, ağac (taxta-şalban) mənşələrinin izlənməsi) sertifikatlaşdırıla bilər.

Məhsulun sertifikatlaşdırılması məhsulun (və ya prosesin və ya xidmətin) müvafiq tələblərə uyğun olması barədə isatehsalçının bəyanatını nəzərdə tutur. Məhsulun uyğunluğunu bəyan etmək Sertifikatlaşdırma orqanının vəzifəsi deyil, istehsalçı tərəfindən iddia olunan qəbul edilmiş tələblərə uyğunluğun doğruluğunu təsdiq etməkdir.

Məhsulun akkreditasiya olunmuş orqan tərəfindən sertifikatlaşdırılması sertifikatlaşdırma orqanı ilə istehsalçı arasında müstəqilliyin sübutudur və tətbiq olunan qanuni tələblərə uyğunluğun ehtimalını təmin edir.

**Məhsul üçün akkreditasiya edilmiş orqan tərəfindən verilmiş şəhadətnamədə məhsulun uyğunluğunun təsdiq olunduğu texniki standartın və ya texniki xüsusiyyətlərin ətraflı istinadları göstərilməlidir.**

# AKKREDİTASİYA ORQANLARININ ŞƏBƏKƏSİ
## EA - Avropa Akkreditasiya Təşkilatı, IAF və ILAC

EA (Avropa Akkreditasiya Təşkilatı) Avropa səviyyəsində və İLAC (Sınaq və kalibrləmə laboratoriyaların və inspeksiya orqnlarının Akkreditasiyası üzrə Beynəlxalq Təşkilatının) və İAF (Beynəlxalq Akkreditasiya Forumu) qlobal səviyyədə dünyanın əsas iqtisadiyyatlarının milli akkreditasiya orqanlarını təmsil edirlər.

EUROPEAN ACCREDITATION
www.european-accreditation.org

www.iaf.nu

www.ilac.org

Aİ və AATA (Avropa Azad Ticarət Assosiasiyası ) ölkələrinin milli akkreditasiya orqanları EA-nın üzvləridir və Avropa akkreditasiya çətirinin altında birləşərək Avropa və dünya bazarlarında akkreditasiya edilmiş qurumlar tərəfindən verilmiş sertifikatlar və hesabatların qəbul edilməsini təmin edirlər.

Avropa akkreditasiya orqanlarının həyata keçirdiyi fəaliyyətlər onların EA Çoxtərəfli Sazişini (EA MLA) imzalamış tərəflər statusu vasitəsilə həm Aİ və həm də dünyada tanınırlar.

Milli akkreditasiya orqanlarına Çoxtərəfli Sazişi (MLA) imzalamış tərəf statusu, yalnız onların əməliyyatlarının ISO / IEC 17011 standartının və 765/2008 saylı Avropa İttifaqının Normativ Aktının (AK) xüsusi tələblərinə və akkreditasiya qurumları üçün beynəlxalq səviyyədə razılaşdırılmış standarta uyğunluqlarının ciddi şəkildə həmkar qiymətləndirmələrindən sonra verilir.




**AZAK - Azərbaycan Akkreditasiya Mərkəzi**
**Mərdanov Qardaşları 124, AZ 1147 Bakı**
**Azərbaycan**
**Email: azak@accreditation.gov.az**
**Phone: +994 12 449 99 59**
**www.accreditation.gov.az**

**Tərtib etdilər**
**Benefisiar ölkə Layihə Rəhbəri**
Prof.Dr. Namiq Əliyev
Azərbaycan Akkreditasiya Mərkəzinin baş direktoru (AZAK)
+994124499959 (109)
namiq.aliyev@accreditation.gov.az

**Rezident Tvinninq Müşaviri (RTM)**
Xanım Zinaida Qorina
Almaniya Akkreditasiya İdarəsinin dəstəyi ilə (DakkS)
+994124499959 (178)
gorina.zinaida@gmail.com

**Üzv Dövlət Layihə Rəhbəri**
Dr. Norbert Şultes
Almaniya Federal İqtisadiyyat və Energetika Nazirliyi
+49 30 1861506039
norbert.schultes@bmwi.bund.de

**Kiçik Layihə Rəhbərləri**
Cənab Giordano Angle (Accredia)
+39 068440991
giordano_angle@yahoo.com

Xanım Francesca Nizzero (Accredia)
+39 0684409923
f.nizzero@accredia.it


EUROPEAN ACCREDITATION


© Copyright EA 2018



Bu broşura Avropa İttifaqının "Azərbaycan Respublikasının Milli Akkreditasiya Sisteminin gücləndirilməsi" adlı Tvinninq layihəsi (AZ 13 ENI TR 02 16 (AZ / 46) çərçivəsində hazırlanmışdır.
Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və Almaniya-İtaliya-Latviya Konsorsiumu tərəfindən həyata keçirilir.
Bu broşuranın İngilis dilində orijinal versiyası EA - Akkreditasiya üçün Avropa əməkdaşlığı tərəfindən hazırlanmışdır.